**Vidadi Muradov**
*Tarix üzrə elmlər doktoru, professor*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

xalchashunasliq@gmail.com

---

# "AZƏRXALÇA" ASC AZƏRBAYCAN XALÇA SƏNƏTİNİN KEŞİYİNDƏDİR

**Xülasə.** "Azərxalça" ASC müasir Azərbaycanın əsas xalçaçılıq mərkəzidir. Cəmiyyət Azərbaycan Prezidenti cənab İlham Əliyevin 5 may 2016-cı il tarixli sərəncamı ilə yaradılıb. Cəmiyyətin qurulduğu tarix olan 5 may tarixinin "Xalçaçı Günü" peşə bayramı günü kimi milli təqvimə daxil edilməsi dünyada analoqu olmayan əlamətdar bir hadisəyə çevrildi. Dünyanın bir çox ölkəsində xalçaçılıq sənəti mövcuddur və indi də qorunub saxlanılır. Lakin bu hadisənin ilk dəfə respublikamızda reallaşması Azərbaycan xalçasının və Azərbaycan xalçaçılarının tarixi haqqıdır. "Azərxalça"nın əsas məqsədi ənənəvi xalq üsulu ilə xalça və xalıların istehsalı, ixracı, ölkə daxilində və xaricdə satışlarının təşkili, xalçaçılıqda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazasının yaxşılaşdırılması və bu sahənin inkişafı ilə əlaqəli digər işlərin həyata keçirilməsidir.

***Açar sözlər:*** "Azərxalça" ASC, xalça və xalça məmulatları, ixrac, filial, hazırlıq kursları, Əyirici-Boyaq Fabriki.

Azərbaycan dünyanın qədim xalçaçılıq mərkəzlərindən biridir. Azərbaycanın milli-mədəni vəsiqəsi olan xalça eyni zamanda ümumbəşəri dəyərdir. Azərbaycan xalçaçılığı yaradan və inkişaf etdirən istedadlı, zövqlü xalçaçıların, eyni zamanda onun

---

düzgün ticarətini təşkil edən, beynəlxalq miqyasda tanıdan tacirlərin vətənidir. Azərbaycan – xalçanın vətənidir.

Zəngin xammal bazasının, xüsusilə qoyunçuluq təsərrüfatlarının və təbii boyaq maddələrinin mövcudluğu xalçaçılığın müstəqil bir sənət və istehsal sahəsi kimi formalaşması üçün burada geniş imkanlar yaradıb. Azərbaycan xalçasının həm bədii, həm də texnoloji baxımdan rəngarəngliyinə zəngin tarixi xalçaçılıq ənənələri olan İran, Anadolu, Uzaq Şərq ölkələri də öz müsbət təsirini göstərmişdir. Azərbaycan xalçaçılığı ümumilikdə Qafqaz xalçaçılığında əsas və dominant rolunu oynamaqla, burada yaşayan müxtəlif xalqların, etnosların xalçaçılıq ənənələrinin yaranmasına və inkişafına təkan vermişdir. Son orta əsrlərdə, xüsusilə XVI–XX əsrin birinci rübü dünyanın xalça ticarətində Azərbaycan xalçalarının dövriyyəsi yüksək olmuşdur. Göstərilən tarixi mərhələdə dünyanın müxtəlif ölkələrinə aparılmış Azərbaycan xalçaları indi Viktoriya və Albert, Metropoliten, Luvr, Ermitaj, həmçinin Filadelfiya, San-Fransisko, Boston muzeylərində, Gürcüstanın Milli Muzeyində, Rusiyanın Etnoqrafiya Muzeyində, şəxsi kolleksiyalarda qorunur. XX əsrin II rübündən etibarən siyasi və sosial-iqtisadi amillərlə əlaqədar olaraq zəifləmələr, geriləmələr, hətta durğunluq yaransa da, istehsal miqyası daralsa da xalçaçılıq Azərbaycan ərazisində daima mövcud olmuş, bir ailə sənəti olaraq öyrədilmiş, təbliğ edilmişdir.

Müstəqillik qazandıqdan sonra Azərbaycanda dövlət tərəfindən xalçaçılığın inkişafına xüsusi diqqət və qayğı göstərilmişdir. 1990-cı illərin əvvəllərindən etibarən bu sənət ayrı-ayrı şirkətlər və fərdi xalçaçılar tərəfindən davam etdirilmişdir. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, Xalça Muzeyi üçün müasir standartlara cavab verən bina inşa edilmiş, rayonlarda yerli xalçaçılıq ənənələrini əks etdirən xalça muzeyləri yaradılmış, "Azərbaycan xalçası" V Beynəlxalq Simpoziumunun təşkil olunması haqqında, "Azərbaycan Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018–2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamlar imzalanmışdır. Sadalananlar Azərbaycan dövlətinin xalçaçılıq sənətinə olan diqqətinin və qayğısının nəticəsi, xalçaçılığı həm tarixi-mədəni, həm də sosial-iqtisadi faktor kimi yüksək qiymətləndirməsidir.





Hal-hazırda Azərbaycanın əsas xalçaçılıq mərkəzi "Azərxalça" Açıq Səhmdar Cəmiyyətidir. Cəmiyyət Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 5 may 2016-cı il tarixli Sərəncamı ilə yaradılmışdır. Cəmiyyətin yarandığı günün - 5 may tarixinin "Xalçaçı günü" peşə bayramı kimi milli təqvimə daxil edilməsi dünyada analoqu olmayan bir hadisədir. Dünyanın bir çox ölkələrində xalçaçılıq sənəti tarixən mövcud olub və indi də yaşamaqdadır. Lakin bu hadisənin ilk dəfə məhz respublikamızda reallaşması Azərbaycan xalçasının və xalçaçılarının tarixi haqqıdır.

"Azərxalça"nın əsas məqsədi ənənəvi xalq üsulu ilə xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalçaçılıqda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsindən ibarətdir.

Azərbaycan xalçaçılığı kompleks anlayışdır. Burada xalçanın toxunuşu ilə yanaşı, eyni zamanda onun xammalının hazırlanması, emalı, bərpası, ticarəti də mühüm əhəmiyyət kəsb edir. "Azərxalça" ASC respublikada xalçaçılıq sənayesini məhz bu kompleks yanaşma əsasında inkişaf etdirir. Onu kütləvi istehsal sahəsinə çevirməklə, respublikamızda dayanıqlı və sağlam təməllər üzərində xalçaçılıq şəbəkəsi yaradır. Respublika ərazisində ənənəvi xalq üsulu ilə xalça toxunmasının kütləvi şəkildə təşkili Cəmiyyətin ilk və əsas fəaliyyət istiqamətlərindən biridir. Bu məqsədlə respublikanın rayonlarında filialların yara-

dılması işinə başlanılmışdır. Filiallar yaradılarkən, ilk növbədə, daha çox tarixi ənənələrə malik xalçaçılıq məntəqələrinə, peşəkar toxucusu çox olan rayonlara üstünlük verilir. Qeyd etmək zəruridir ki, bu faktor Azərbaycanın demək olar ki, bütün rayonlarına şamil edilir. 2016-2018-ci illərdə Cəmiyyətin Füzuli, Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, Quba, Xaçmaz, İsmayıllı, Qəbələ, Lənkəran, Qobustan, Şabran, Cəbrayıl, Kürdəmir, Tərtər, Goranboy, Naxçıvan, Abşeron, Nardaran, İkinci İsmayıllı filialları yaradılmışdır. Bu filialların hər birində 150 toxucu, 10 nəfər inzibati-texniki işçinin işlə təmin olunması üçün imkan vardır. Yeni və müasir filial binaları toxuculuq emalatxanası, anbar, yeməkxana, konfrans zalı, tibb otağı, satış salonu və digər bölmələrdən ibarətdir. "Azərxalça"nın bölgələr üzrə apardığı statistik təhlillər göstərir ki, növbəti illərdə xalça istehsalı şəbəkəsinin miqyasını daha da genişləndirmək və möhkəmləndirmək üçün respublikamız potensial imkanlara malikdir.

Paralel olaraq rayonlarda "Azərxalça"nın təşkil etdiyi tədris-hazırlıq kursları da fəaliyyət göstərir. Dərslər böyük iş təcrübəsinə malik peşəkar xalçaçılar tərəfindən aparılır. Tədris-hazırlıq kursları hanalarla, avadanlıqlarla, xammalla, eyni zamanda xalçaçılıq sənətinə dair müvafiq ədəbiyyatlarla, dərsliklərlə təmin edilmişdir. İndiyədək bu kurslarda hazırlıq keçmiş və artıq bu peşəyə tam yiyələnmiş toxucuların sayı 2000 nəfərdən çoxdur. Bu toxucuların arasında gənclərin sayı daha çoxdur. Tədrisi başa vuran tələbələr təcrübi imtahanlardan sonra Cəmiyyətin peşə tədrisi haqqında sertifikatını alırlar. Onlar əsasən yerli filiallarda daimi işlə təmin olunacaqlar. Qeyd etmək vacibdir ki, filiallar yaradılarkən hər bir rayonun məhz yerli kadr potensialı əsas götürülür. Eyni zamanda xalçaçı-rəssamlar, yun və boyaq bitkilərinin tədarükü və emalı, hazır xalçaların emalı, xalça ticarəti və xalçaçılığın inkişafı üçün vacib olan digər istiqamətlər üzrə mütəxəssislər də hazırlanır.





"Azərxalça"nın xalçaları Cəmiyyətin "Bədii yaradıcılıq və keyfiyyətə nəzarət" şöbəsinin xalçaçı-rəssamlar tərəfindən hazırlanmış çeşnilər əsasında toxunur. Azərbaycanda ilk dəfə olaraq qədim xalçalar əsasında yeni çeşnilərin elektron variantının hazırlanması və Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qrupları üzrə kataloqlaşdırılması da məhz burada həyata keçirilir. Daha çox dünya muzeylərində və kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalça və xalça məmulatları əsasında çeşnilərin hazırlanmasına üstünlük verilir. Hər bir çeşni öz-özlüyündə xalça haqqında ilkin informasiya bazasıdır. Çeşni kağızı üzərində xalçanın ölçüləri, sıxlığı, arğac və əriş iplərinin sayı, həmçinin istifadə olunan rənglər haqqında məlumat verilir. İndiyədək şöbədə 2000-ə yaxın xalça çeşnisi hazırlanmış və istehsalatda tətbiq edilmişdir.

Cəmiyyət Azərbaycan xalçasının Azərbaycan xammalı əsasında toxunaraq dünyaya əsl "Azərbaycan brendi" olaraq təqdim edilməsini qarşısına məqsəd qoyub. Bunun üçün ölkəmizin geniş imkanlara malik olduğunu yerli və xarici ekspertlər də təsdiqləyirlər. Bu məqsədlə Sumqayıt Kimya Sənaye Parkında Yunəyirici-Boyaq Fabriki yaradılır. Türkiyə, Fransa və İtaliya istehsalı olan avadanlıqlarla təchiz ediləcək Fabrik son illərin böyük miqyaslı iqtisadi layihələrindən biridir. Bu fabrikdə təmiz yun, yun iplik, təbii və kimyəvi boyaq maddələri hazırlanacaq. İlk növbədə, "Azərxalça"nın filiallarının, özəl xalçaçılıq müəssisələrinin yun ipliyə olan tələbatı ödəniləcək. Yunəyirici-Boyaq Fabrikinin xammalla təmin olunması məqsədilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə rayonlarında, Sabirabad Sənaye Məhəlləsində regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri də yaradılıb. Müasir texniki avadanlıqlarla təmin olunmuş bu məntəqələrdə il ərzində 1500 ton yun və boyaq bitki xammalının toplanılması nəzərdə tutulub.

Cəmiyyətin istehsalı olan xalçaların satışa çıxarılması prosesinin intensivləşdirilməsi məqsədilə Sumqayıt Kimya Sənaye Parkında Hazır Xalçaların Emal Mərkəzinin də inşa edilməsi də planlaşdırılır.

Cəmiyyət xalçaçılıq üzrə ixtisaslaşmış beynəlxalq qurumlarla, şirkətlərlə, o cümlədən nüfuzlu nəşrlərlə əlaqələrin genişləndirilməsinə, bununla da Azərbaycan xalçalarının beynəlxalq xalça bazarında mövqeyinin bərpasına və təbliğinə çalışır. Xalçalarımız "Azərbaycan brendi" olaraq Almaniyanın Hannover şəhərində keçirilmiş ənənəvi DOMOTEX beynəlxalq xalça satış sərgisində, Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən Rug Show-da, Cənubi Koreyanın Seul şəhərində keçirilən sərgidə təqdim olunub. Beynəlxalq tədbirlər əl ilə toxunmuş yeni Azərbaycan xalçalarına dünya bazarlarında tələbatın böyük olduğunu və "Azərxalça"nın istehsalı olan məhsulların yaxın gələcəkdə xarici ölkələrə intensiv satış imkanlarının mövcudluğunu göstərib.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətini əks etdirən materiallar "HALI" "Carpet XL" kimi jurnallarda öz əksini tapır. "HALI" jurnalı 190-cı sayından etibarən öz səhifələrində "Azərxalça"nın fəaliyyətini ənənəvi xalq toxuma üsulunun bərpaçısı və təbliğatçısı, əl ilə toxunan xalçaların kütləvi istehsalçısı, Cənubi Qafqazda qədim xalçaçılıq ənənələrinin daşıyıcısı kimi işıqlandırır. Ümumiyyətlə, Azərbaycan, ingilis və rus dillərində olan web səhifəsindən, instagram və facebook kimi sosial şəbəkələrdən Cəmiyyətin fəaliyyəti, istehsal olunan məhsulları haqqında dolğun informasiya əldə etmək mümkündür.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti ənənəvi xalq üsulu ilə xalça istehsalının genişləndirilməsi, xalçaçılığın daxili imkanlar əsasında maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsi, xalçaçı kadrların hazırlanması və Azərbaycan xalçasının beynəlxalq nüfuzunun qorunması istiqamətində bundan sonra





da tam gücü ilə çalışacaq. Dövlətimizin bu sahəyə dair planlarını reallaşdıracaq, etimadını doğruldacaq.

**Vidadi Muradov**

**"Azerkhalcha" OJSC- the keeper of Azerbaijani carpet art**

The main carpet weaving center of modern Azerbaijanis Azerkhalcha Open Joint Stock Company. The Company was established by the May 5, 2016 Order of Mr. Ilham Aliyev, the President of the Republic of Azerbaijan. The inclusion of May 5, the day of the establishment of the society, in the national calendar as a professional holiday - "Carpet Weavers' Day" – is anunprecedented event in the world. Carpet weaving has existed in many countries of the world, and it is still alive today. However, the fact that this event was first realized in our country is the historical right of Azerbaijani carpets and carpet makers. The main purpose of Azerkhalcha is to produce carpets using traditional methods, to export and sell carpets and carpet products both domestically and abroad, to implement new technologies in carpet weaving, to modernize material and technical base and to carry out other works related to the development of this field.

***Key words:*** "Azerkhalcha" OJSC, carpets and carpet products, exports, branches, preparatory courses, Spinning and Dye Factory.

**Видади Мурадов**

**«Азерхалча» ОАО – хранитель азербайджанского коврового искусства**

Открытое акционерное общество «Азерхалча» – основной центр ковроткачества современного Азербайджана. Общество создано по Распоряжению Президента Азербайджа-

на господина Ильхама Алиева от 5 мая 2016 года. Включение 5 мая – даты создания Общества, в национальный календарь в качестве профессионального праздника «День ковроде-ла» стало знаменательным, не имеющим аналога в мире, событием. Во многих странах мира существовало и сейчас сохранилось искусство ковроткачества. Но реализация этого события впервые именно в нашей республике является историческим правом азербайджанского ковра и азербайджанских ковроделов. Основной целью «Азерхалча» является производство ковров и ковровых изделий традиционным народным способом, их экспорт, организация продажи внутри страны и за рубежом, внедрение новых технологий в ковроткачестве, усовершенствование материально-технической базы и осуществление других работ, связанных с развитием данной отрасли.

***Ключевые слова:*** «Азерхалча» ОАО, ковры и ковровые изделия, экспорт, филиал, подготовительные курсы, прядильно-красильная фабрика.